AZƏRBAYCAN RESPUBLİKASI
VERGİLƏR NAZİRLİYİ

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

BEYNƏLXALQ TƏCRÜBƏLƏR VƏ İNNOVASİYALAR ŞÖBƏSİ

# Operativ vergi nəzarəti məsələləri üzrə beynəlxalq təcrübəyə dair

# İCMAL




**2015**

# Giriş

Müasir dünyada müşahidə olunan məişət problemləri, o cümlədən gəlir səviyyəsini artırma istəkləri vergi ödəyicilərində əldə etdikləri gəlirləri gizlətmək meylliliyi yaradır. Bu da ölkələrin vergi sisteminin fəaliyyətini zəifldən, bunun nəticəsi olaraq büdcə kəsirlərinin yaranması, nəzərdə tutulmuş sosial layihələrin baş tutmaması, büdcə təşkilatlarının əmək haqları və pensiya ödənişlərində axsamalar, səhiyyə sistemi, hərbi sistem, o cümlədən təhsil sənayesinin qeyri-qənaətbəxş işləməsinə gətirib çıxaran amillərdir. Buna görə də hər bir ölkənin vergi sisteminin yaxşı işləməsi vacib şərtdir.

Dünyanın hər bir ölkəsində dövlət qurumları müxtəlif yoxlama tədbirləri həyata keçirməkdədir. Çünki yoxlama idarəetmənin önəmli elementlərindən biridir. Vergi orqanı da yoxlama vasitəsilə məlumatların doğruluğunu və tamlığını müəyyən edə bilər. Vergi orqanları vergi əməletməsini yüksəltmək üçün inzibatçılıq tədbirlərindən istifadə etməkdədir. Təsadüfi deyildir ki, bəzi qabaqcıl dünya ölkələrində vergi polisi məhfumu təqdim edilmişdir. Vergi polisinin funksiyası əsasən vergi bəyannamələrinin təqdim olunması, maliyyə fırıldaqçılığı, qanunsuz sahibkarlıq, xarici valyuta ilə əməliyyatlara nəzarətdən ibarətdir.

Bu gün qabaqcıl vergi inzibatçılığına malik olan ölkələr könüllü əməletməni təşviq edən alətlərdən istifadə etsələr də inzibati qaydaların təkmilləşdirilməsini də paralel olaraq aparırlar. Məsələn, Azərbaycanda yoxlamalar əsasən səyyar və kameral olmaqla iki qrupa ayrılırsa, Tacikistanda üç (sənədli, reyd və xronometraj), Qazaxıstanda iki (sənədli və xronometraj), Ukraynada üç (səyyar, operativ və kameral), Fransada iki (bəyannamə və sənədli), Yaponiya, Kanada, Böyük Britaniya, ABŞ, Almaniyada vergi yoxlamaları bəyannamələrin yoxlanılması, audit (burada məqsəd mühasibat uçotunun aparılma qaydasına nəzarətdir) və istintaq (burada vergi ödəyicisi inzibati cərimə ilə bərabər cinayət məsuliyyətinə də cəlb oluna bilir) olmaqla üç qrupda təsnifləşdirilir.

Qeyd olunan bütün yoxlama növləri vergi qanunvericiliyinə əməletməni təmin etmək üçün tətbiq olunur. Təbii ki, hər yoxlama növünün obyekti, predmeti və maliyyə dəyəri

bir-birindən fərqlənir. Yoxlama növlərinin hansı həddə istifadə olunması hər bir vergi orqanının müstəqil qərar verəcəyi məsələdir.

**NƏZARƏT-KASSA APARATLARINDAN İSTİFADƏ HANSI QAYDADA HƏYATA KEÇİRİLİR VƏ HƏMİN NƏZARƏT-KASSA APARATLARINDAN NAĞD PUL HESABLAŞMALARININ APARILMASI ZAMANI BAŞ VERMİŞ QANUN POZUNTULARI İLƏ ƏLAQƏDAR HANSI CƏZA TƏDBİRLƏRİ NƏZƏRDƏ TUTULUB?**

Qabaqcıl təcrübəyə malik ölkələrdə kassa aparatlarının istifadəsi üzrə qaydalar müəyyən olunmuşdur. Həmin qaydalar demək olar ki, hər yerdə vergi və gömrük administrasiyası tərəfindən təsdiq olunur. Məsələn, İrlandiyada qaydalara görə kassa aparatları üzrə qeydiyyat sənədləri ya elektron ya da kağız daşıyıcılarında son 6 (altı) illik dövrü əhatə etməli, daxil olan hər bir əməliyyatın tarixi və həcmi aydın oxunan olmalı və ardıcıllıq prinsipinə riayət olunmalı, məlumatlar yanğından və digər təbiət hadisələrinin fəsadlarından qorunma xassəsinə malik olmalıdır. İOTA təşkilatına üzv olan ölkələrin hamısında kassa aparatları müvafiq vergi administrasiyalarında qeydiyyatdan keçməlidir. Kassa aparatlarının istehsalçıları vergi orqanı ilə sıx əməkdaşlıq edirlər. İstehsal olunacaq hər kassa aparatının idarə olunnması üzrə şifrələmə kodu vergi orqanı tərəfindən kassa istehsalçısına verilir. Vergi orqanının nəzarət kassa aparatlarının istifadəsi üzrə yoxlama tədbirlərinin keçirilməsi təcrübəsi mövcuddur. Həmin yoxlamalar əvvəlcədən elan olunmadan baş verir, satışlar, qəbzlər və nağd vəsait qalığı yoxlanılır. Yoxlayıcı z-çıxarış almaqla satışların qeydiyyatının tamlığını və düzgünlüyünü yoxlayır. Uyğunsuzluq hallarında vergi ödəyicisi cərimələnir və eyni zamanda geniş səyyar yoxlama başladıla bilər. İsveç Krallığında aşağıdakı hallarda vergi ödəyicisi 10000 kron məbləğində cərimələnir (1000 manata yaxın):

- Kassa aparatı mövcud deyil;
- Kassa aparatı müəyyən olunmuş standartlara uyğun deyil;
- Kassa aparatı üzrə hesabat vaxtında təqdim olunmamışdır (Vergi ödəyicisi fəaliyyətə başlamadan və fəaliyyət dövründə kassanı dəyişdiyi təqdirdə vergi orqanına məlumat göndərməlidir);
- Kassa aparatı texniki baxışdan keçməmişdir;
- Məlumatlar kassaya daxil edilməmişdir;
- Müştərilərə çek təqdim edilməmişdir.

Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, müasir zamanda dünya ölkələrinin vergi orqanlarının əsas problemi kassa aparatlarından istifadə etmədən yayınmaq deyil, kassa aparatlarından istifadə edərək daha sonra daxil olan qeydlərin silinməsidir. Bu problem keçid iqtisadiyyatı yaşayan ölkələrdə ticarət, məişət və iaşə obyektlərində kassa aparatlarının istifadəsində də mövcuddur. Sahibkarlar əsasən dövriyyələrini kassa aparatlarına qeyd etməkdən qaçınmırlar. Bütün satışlar kassaya vurulur və silinmələr sonra baş verir. Satışdan əldə olunan gəlirlərin kompyuter texnikasından istifadə edərək gizlədilməsi dünya miqyasında tətbiq olunur və bu da öz növbəsində vergi daxilolmalarını əhəmiyyətli dərəcədə azaldır. Vergi orqanları yoxlama məqsədləri üçün daxil olan məlumatların **düzgünlüyündən** öncə həmin məlumatların **tamlığından** əmin olmalıdır**.** Pərakəndə ticarətdə geniş istifadə olunan elektron kassa terminalı sistemi müəssisənin idarə olunmasında önəmli mühasibat sənədləri kimi istifadə olunur. Müvafiq olaraq da həmin məlumatlar vergi yoxlayıcıları üçün əsas məlumat bazasını təşkil edir. Amma bu gün aşkar olunur ki, kompyuter texnologiyalarından istifadə edərək həmin məlumatlar manipulyasiya oluna bilir. Buna "skimming" fəaliyyəti deyilir. "Skimming" fəaliyyəti əsasən kiçik və orta bizneslər üçün xarakterikdir. Çünki bu tip təşkilatlarda daxili nəzarət tədbirləri daha az tənzimlənir və şirkət sahibləri məhdud sayda şəxslərdən ibarətdir. Şirkət artıq heç bir satışını kassa qeydiyyatından yayındırmır, sadəcə olaraq sahibkara lazım olan zamanda qeydləri qismən də olsa gizlədə bilir. Satışlar və yaranan gəlirlər haqqında qeyri-dəqiq məlumatlar olduğuna görə vergi orqanları milyardlarla dollar/avro vəsaiti dövlət büdcəsinə mədaxil edə bilmirlər. Məsələn, Kanada restoranlar assosiasiyası 2009-cu ildə Kanada restoranlarının illik gizlətdikləri vəsaitin həcmini 2,4 milyard Kanada Dolları həcmində qiymətləndirib.

Elektron Kassa Aparatları Sistemi ilə bağlı risk modelləri




Yuxarıdakı diaqramdan görünür ki, kassa aparatlarının məlumat generasiyası müxtəlif mərhələlərdə vergitutma bazası kimi risk qrupuna aid edilir. Birinci risk zonası əməliyyatların tamlığını əks etdirməklə bağlıdır. Əgər məlumatlar tam, düzgün, və aktual deyildirsə vergi bəyannaməsi üçün yanlış məlumatlar təqdim olunur. İkinci risk istifadə olunan proqram təminatı ilə bağlıdır. Əgər istifadə olunan proqram təminatı kassa aparatının bütün əməliyyatları üzrə, arxiv məlumatlar da daxil olmaqla verə bilmirsə onda qeyri səlis məlumat riski yaranır. Üçüncü risk zonası ən təhlükəlidir. Məhz bu mərhələdə proqram təminatından istifadə edərək əməliyyatlar haqqında məlumat gizlədilərək manipulyasiyaya uğrayaraq, satışdan yaranan gəlirlər gizlədilə bilər. Dördüncü risk məlumatların offline rejimdə ötürülməsi və saxlanması ilə bağlıdır. Yəni kassa terminallarında qeydiyyat yaddaşının dolması nəticəsində məlumatlar bazaya daxil olmur. Bəzi ölkələrdə məlumatların saxlanılması müddətləri qanunvericilikdə əksini tapmışdır. Xarici fayllar dedikdə gündəlik kassa terminallarından çıxan və ayrıca kompyuterdə və ya daşınan diskdə saxlanan məlumat

bazasıdır. Hesabatla bağlı olan 5-ci risk onu idarə edən 2-ci risk (proqram təminatı riski) ilə əlaqəlidir. Burada söhbət hesabatların hazırlanması zamanı yaranan manipulyasiyadan gedir. Əgər elektron hesabatlar hər hansı səbəbdən itirsə, biznes sahibi kağız üzərindəki nüsxələrdən lazımi məlumatları ala bilməlidir.

**Qeyd olunan vergitutma risklərinin aradan qaldırılması üçün ən optimal həll yolu vergitutmanın əməliyyat zamanı baş verməsinə nail olmaqdır.** Digər sözlə kassa aparatlarının birbaşa vergi orqanlarının bazası ilə inteqrasiyası olmalıdır.

**ZAPPER və PHANTOM-WARE nədir?**

Zapper satışdan əldə olunan gəlirləri gizlətmək üçün istifadə olunan proqram təminatıdır. Bu proqram təminatı USB daşıyıcılarda, CD-lərdə və ya internet üzərində mövcuddur. Zapperin yaradılması və satışı ilə elektron kassa terminalı sistemini quran şəxslər məşğul olur. Proqram vasitəsilə satışlardan gəlirlər dəyişdirilə və ya silinə bilər. "Zapper" proqramının digər xüsusiyyətlərindən biri də ən çox satılan malın, məsələn içkilər və un məhsullarının, satıcı tərəfindən müştəriyə qəbz təqdim edildiyi halda qəbzdə tam məbləğ qeyd olunmasına baxmayaraq, kassa aparatının elektron yaddaşına yazılmamasını təmin etməsidir ki, bu da vergidən yayınmaq üçün iri marketlərlərə çox əlverişlidir. "Zappers" kassa aparatının yaddaşına quraşdırılmır, sadəcə olaraq yaddaş kart vasitəsilə istifadə olunur.

Araşdırma nəticəsində aşkar olundu ki, Zappers proqramından İrlandiyada geniş istifadə edirlər və bu proqram vasitəsilə İrlandiya büdcəsi hər ay on milyonlarla avro itirir. **Əldə olunan məlumatlar bütün növ kassa terminalları istehsalçılarının məlumatların gizlədilməsi mexanizmini dəstəkləyən proqram təminatını da təklif etdiklərini düşünməyə əsas verir.**

Bir çox inkişaf etmiş ölkələrdə vergi məqsədləri üçün məlumatların tamlığını və dəqiqliyini təmin etmək üçün qanunvericilikdə şirkətlərin məlumat uçot sisteminin aparılma qaydaları tənzimlənir.



**Satışdan gəlirlərin gizlədilməsini müəyyən etmək məqsədi ilə universal vergi yanaşması mövcuddur.**

- Şəxsi istehlak səviyyəsinin qiymətləndirilməsi – Gəlirlər, nağd hesablaşmalar və aktivlərin dinamikası əsasında auditor vergi ödəyicisinin sərəncamında olan şəxsi məqsədlər üçün vəsaiti müəyyən edə bilər. Ödəyicinin vəsaitinin nəzərəçarpacaq dərəcədə az olduğu müəyyən edildikdə bəyan olunmayan gəlirlərin mövcudluğu ehtimalı yaranır.
- Kassadakı vəsaitin mənfi balansı onun göstəricisidir ki, ödəyici hesabatda göstərilən məbləğdən artıq vəsaiti kassadan mənimsəmişdir. Nəzəri olaraq bu mümkün deyildir. Buna görə də bəyan olunmayan gəlirin mövcudluğu ehtimal olunur.
- Satışları təhlil etmək üçün ümumi gəlirlərin strukturundan istifadə etmək olar. İlk öncə satışlar vergi ödəyicisinin rəsmi təqdim etdiyi alış və satış qiymətlərinə baxılaraq, daha sonra mühasibat qeydləri əsasında təhlil olunur. Əgər hesabatda qeyd olunan ümumi gəlir hesablanmış məbləğdən aşağıdırsa deməli satışlar gizlədilmişdir.
- Dövriyyəni yoxlamaqla yoxlayıcı şirkətin aldığından daha çox satmadığını, mal qalığını yoxlamaqla nəzərə alınmayan satışları aşkar edə bilər.
- Cari fəaliyyətdən daxil olan pul vəsaitinin müəssisənin ümumi gəlirinə olan nisbəti (gəlirlər hesabatına əsasən)

  Faiz nisbəti nə qədər yuxarı olsa o qədər satışlar şəffaf təşkil olunmuşdur deməkdir. Məsələn, Kanada restoranlarından birində bu rəqəm dövlətin həmin sənaye üzrə rəsmi statistikasına uyğun olmasına baxmayaraq araşdırma nəticəsində rəqəmin ciddi təhrif olunduğu görünmüşdür.
- Vergi məmurları məlumatları gizlətmək üçün istifadə olunan proqram təminatını əldə edib onu təhlil edə bilərlər
- Mal qalığı məlumatı və hesab fakturanın formalaşması birbaşa satışlara kassa nəzarət sistemi ilə bağlıdır. Həmin məlumatların təhlili audit məqsədləri üçün vacib məlumat ola bilər.

**Beləliklə, Zapper proqramı kassa aparatları və POS –ların təmin etdikləri məlumatların rekanstruksiyasını (silinməsi, yerdəyişdirilməsi, rəqəm dəyişməsi) həyata keçirir.**

**Phantom-ware proqramı** da eyni funksiyaları yerinə yetirir. Onların bir fərqi vardır ki, zapper kassa və ya POS aparatına əlavə daşıyıcılar (USB, CD) vasitəsilə yüklənir. Phantom-ware isə kassa və POS aparatlarına istehsalçı tərəfindən yerləşdirilən, gizli şifrə ilə açılan mexanizmdir.

## AKSİZ MARKALARI İLƏ MARKALANMALI OLAN MALLARIN SİYAHISI VƏ HƏMİN MALLARIN AKSİZ MARKASI İLƏ MARKALANMADIĞINA GÖRƏ VƏ YA SAXTA AKSİZ MARKASI İLƏ MARKALANDIĞINA GÖRƏ BAŞ VERMİŞ QANUN POZUNTULARI İLƏ ƏLAQƏDAR CƏZA TƏDBİRLƏRİ

Avstraliyada aksiz vergisi ölkədə istehsal olunan alkoqollu içkilər, tütün, neft və neft məhsullarını əhatə edir. Aksizə cəlb edilən içkilərə pivə, alkoqol, likyor və digər içkilər (şərab istisna olmaqla) aid edilir. Kommersiya məqsədləri üçün istehsal olunmayan məhsullar aksiz vergisinə cəlb olunmur. Vergiyə cəlb olunan tütün məhsullarına siqaret, siqar və siqaret məhsulları aiddir. Vergiyə cəlb edilən neft və benzin məhsullarına xam neft, benzin, bio-yanacaqlar, solventlər, sürtük yağları və qaz daxildir. Bununla yanaşı, idxal olunan eyni adlı məhsullar aksiz vergisinin dərəcələri ilə gömrük rüsumuna cəlb olunur və Analoji aksizli mallar (Excise equivalent goods) adlanır. Əgər şəxs aksizli mallar istehsal edirsə və ya saxlayırsa uyğun icazə (lisenziya) əldə etməlidir. Aksiz dərəcələri aşağıdakı şəkildə hesablanır:

- Alkoqollu içkilər üçün litrlə- alkoqollu içkinin həcmi məhsulun faktiki həcmi ilə onun spirtlilik dərəcəsinin hasilinə bərabərdir. (pivə üçün, alkoqol tərkibinin 1.15 % -i aksiz vergisindən azaddır).
- Yanacaq və benzin (qaz yanacağı da daxil olmaqla) litr, kilo litr və ya kiloqramla hesablanır.
- Siqaret və siqarlar ədədlə hesablanır. Hər bir ədəd 0.8 qramdan artıq olmur.
- Digər bütün tütün məmulatları üçün isə kiloqram.

Avstraliyada şərabdan aksiz vergisi tutulmur, bunun əvəzində şərabdan **şərab tarazlaşdırma vergisi (wine equalisation tax)** tutulur. Bu vergi növü Avstraliyada istehlak olunan şərablara tətbiq edilir. **Şərab tarazlaşdırma vergisi (wine equalisation tax)** şərabın dəyəri və onun sonuncu topdan satış qiymətinə əsasən hesablanır. Əgər şəxs mal və xidmət vergisinin məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, o idxal etdiyi şəraba görə **şərab tarazlaşdırma vergisini (wine equalisation tax) ödəməlidir.** Adı çəkilən vergi etil spirtinin dərəcəsi 1.15 %-dən çox olan şəraba tətbiq edilir. Əgər

şəxs şərab və şərab məhsullarını istehsal edir, idxal edir və topdan satışı ilə məşğul olursa, o **şərab tarazlaşdırma vergisini (wine equalisation tax) ödəməlidir.** Şərabdan başqa digər alkoqollu içkilər aksiz vergisinə (əgər Avstraliyada istehsal edilibsə) və ya gömrük rüsümuna (əgər idxal edilibsə) cəlb edilir.

***Aksiz lisenziyası***

Aksizli malların istehsalı və ya saxlanması üçün Avstraliyada aksiz lisenziyası alınmalıdır. İstehsal lisenziyası aksizə cəlb olunan malların istehsalına imkan yaradan sənəddir. Bu lisenziya aksizə cəlb edilən malların istehsalı ilə yanaşı, aksizli malların istehsalı üçün tələb olunan xammalın da ehtiyatda saxlanmasına imkan verir. Eyni zamanda, aksizə cəlb olunan malların anbarda saxlanmasını təmin edən hüquqi və fiziki şəxslərə xüsusi lisenziya verilir. Həmin şəxslər aksiz vergisinin ödəyicisi hesab edilmirlər. Tütün toxumları, bitkiləri və yarpaqları aksizə cəlb olunmurlar. Bunların istehsal və ya çatdırılması üçün isə xüsusi lisenziya tələb olunur.

***Aksiz lisenziyası üçün müraciət***

Avstraliya qanunvericiliyinə əsasən hər kəs aksiz lisenziyası üçün müraciət edə bilər. Avstraliya vergi orqanına edilən bu müraciət aşağıdakı kriteriyalara əsasən araşdırılır:

- Vergi qanunvericiliyinə əməletmə səviyyəsi
- Bu sahədə təcrübə və bacarıqların qiymətləndirilməsi
- Malın bazarda mövqeyi
- Maliyyə resursları

İstehsal və anbar xidmətləri ilə bağlı lisenziyanın əldə edilməsi üçün əlavə sənədlər tələb olunur. Lisenziyanın ləğv edilməsi, geri alınması Avstraliya Vergi Administrasiyası tərəfindən həyata keçirilir.

Qanunsuz olaraq, aksizli malların istehsalını, saxlanmasını və satışını həyata keçirən şəxslərə aşağıdakı qaydalarda cəza tədbirləri tətbiq edilir:

➢ **Malların müsadirə edilməsi**

Aksizə cəlb olunan malların satışı, saxlanması və istehsalı lisenziyası olmayan şəxslər tərəfindən həyata keçirildikdə həmin mallar müsadirə edilir.

➢ **Aksizli malların qanunsuz hərəkəti**

Şəxs icazəsi olmadan, bilərəkdən və ya bilməyərəkdən aksizi ödənilməmiş malları bir yerdən başqa yerə aparması:

- 2 il həbs
- 500 cərimə vahidi (1 cərimə vahidi – 170 Avstraliya dolları)
- əgər mal cərimənin yazıldığı gün istehlakçı bazarına daxil olubsa, ödənməli olan məbləğin 5 misli miqdarında cərimə

➢ **Aksizli malların qanunsuz satışı**

**a)** Şəxsin bilərəkdən və ya bilməyərəkdən aksizi ödənilməmiş, ancaq aksizə cəlb olunmalı malların satışını həyata keçirməsi:

- 2 il həbs cəzası
- 500 cərimə vahidi və ya ondan çox
- əgər mal istehlakçı bazarına cərimə günü daxil olubsa, ödənməli olan rüsumun 5 misli miqdarında cərimə

**b)** Şəxs aksizi ödənilməmiş malları satdığı halda:

100 cəza vahidi

➢ **Qanunsuz aksizli malların əldə edilməsi**

**a)** Şəxsin bilərəkdən və ya bilməyərəkdən icazəsi olmadan aksizi ödənilməmiş malları əldə etdikdə:

- 2 il həbs cəzası
- 500 cəza vahidi
- əgər mal istehlak bazarına cərimənin yazıldığı gün daxil olubsa, ödənməli məbləğin 5 misli məbləğində

**b)** Şəxs icazəsi olmadan tam və ya yarımçıq istehsal olunmuş aksizi ödənilməmiş malları əldə etdikdə:

- 100 cərimə vahidi

**Böyük Britaniya**

Aksiz vergisi Böyük Britaniyada benzin, alkoqol, tütün, mərc və nəqliyyat vasitələrinə tətbiq edilir. Bu vergi həmçinin belə məhsulların istehsalçılarından da tutulur. Ölkədə aksiz vergisi dolayı yolla istehlakçılardan tutulur. Belə ki, bu vergi

məhsulun satış qiymətinə daxil edilir. Böyük Britaniya qanunvericiliyinə əsasən **alkoqollu içkilərə** aşağıdakılar daxildir:

**Pivə -** Hazır məhsulun vergi dərəcəsi hər 100 litr/ alkoqolun dərəcəsi üçün 21.45 avrodur.

**Şərab** – Standard vergi dərəcəsi hər adi şərabın 100 litr üçün 278.59 avro və hər qazlı şərabın 100 litri üçün 356.85 avrodur.

**Fermentli içkilər (pivə və şərabdan başqa)_-** hər 100 litr adi fermentli içkilər üçün 278.59 avro və qazlı içkilər üçün hər 100 litr üçün 326.94 avro

**Aralıq məhsullar -** Avropa Birliyində belə məhsulların hər 100 litri üçün minimum vergi dərəcəsi 45 avrodur. Böyük Britaniyada isə belə məhsulların hər 100 litri üçün 278.59 avrodur.

**Etil alkoqolu_**– Avropa Birliyində minimum aksiz vergisi hər 100 litr üçün 550 avrodur. Böyük Britaniyada bu vergi dərəcəsi hər 100 litr üçün 3061.59 avrodur.

**Tütün** məhsullarına aşağıdakılar daxildir:

**Siqaret** – aksiz vergisinin dərəcəsi hər 1000 ədəd üçün 160.71 avrodur.

**Siqar** - aksiz vergisinin dərəcəsi hər 1000 ədəd üçün 234.06 avrodur

**Yaxşı kəsilmiş tütün məhsulları (Fine cut smoking tobacco)_**– hər 1000 ədəd üçün 234.06 avro

**Digər tütün məhsulları** – hər 1000 ədəd üçün vergi dərəcəsi 102.90 avrodur.

**Neft və neft məhsulları_**– hər 1000 litr üçün aksiz vergisinin dərəcəsi minimum 0 avro maksimum isə 722 avro təşkil edir.

Ölkədə aksizli malların idxalı, ixracı, satışı və saxlanması üçün lisenziya almaq lazımdır. Böyük Britaniya qanunvericiliyinə əsasən aksiz vergisini ödəməkdən yayınmalar aşağıdakı inzibati tədbirlərin görülməsinə gətirib çıxarır:

- Müsadirə
- Vətəndaş cərimələri (civil penalties)

Vətəndaş cərimələrində hər məhsulun qanunsuz dövriyyəsi, satışı, idxalı və ixracı ilə bağlı müxtəlif cərimələr nəzərdə tutulub.

## XÜSUSİ RAZILIQ (LİSENZİYA) TƏLƏB OLUNAN FƏALİYYƏT NÖVLƏRİ

Estoniyada istənilən şirkət qanunvericiliyə uyğun olaraq fəaliyyət göstərmək üçün lisenziya almalı olduqda aidiyyəti mərkəzi icra hakimiyyəti orqanına qeydiyyat ərizəsi göndərməlidir. Ərizənin baxılmasına görə dövlət rüsumu ödənilməlidir. Lisenziya üçün ərizə baxışının dövlət rüsumu bir neçə avrodan 10000 avroya qədər dəyişir. Bu qiymət etibarlılıq müddətinə görə fəaliyyət sahəsindən asılı olaraq dəyişir. İqtisadi fəaliyyətlər reyestrində qeydiyyat üçün ərizə baxışının dövlət rüsumu təqribən 20 avrodur. Lisenziya almaq üçün prosedurlar fəaliyyət növündən asılı olaraq dəyişir. İqtisadi fəaliyyətlər reyestri bütün şirkətlərin verilməsi tələb olunan məlumatlarını özündə saxlayır. Şirkətlər məlumatlarında hər hansı bir dəyişiklik baş verdikdə, fəaliyyəti dayandırdıqda və ya düzgün olmayan məlumatları göndərdikdə təxminən 1300 avroya qədər cərimə oluna bilərlər.

Estoniyada xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət sahələri aşağıdakılardır:

- Enerji (elektrik istehsalı, satışı, qaz idxalı, satışı, istilik istehsalı, satışı)
- Dəniz nəqliyyatı xidmətləri və gəmiçilik agentliyi
- Dəmir yolları (dəmiryolu infrastrukturunun idarəedilməsi, sərnişin və mal nəqliyyatı xidmətləri)
- Taksi, ictimai nəqliyyat
- Əczaçılıq fəaliyyəti
- İdman mərc oyunları
- Təhlükəsizlik xidmətləri
- Sığorta fəaliyyəti
- Maliyyə xidmətləri, kredit təşkilatları ilə bağlı fəaliyyətlər, fondun idarə edilməsi, investisiya fəaliyyətləri, qiymətli kağızlar bazarı
- Poçt xidmətləri
- Silah, sursat və partlayıcılarla bağlı fəaliyyətlər
- Gömrük brokerləri
- Geoloji tədqiqat.

Latviyada adətən şirkətlərdən səlahiyyətli dövlət və ya bələdiyyə müəssisələrinə qeydiyyat ərizələri göndərməklə xüsusi iqtisadi fəaliyyəti davam etdirmək hüququ verən sertifikat, lisenziya və ya icazə almaları tələb olunur. Bu növ ərizələrin baxılması üçün dövlət rüsumu fəaliyyət sahəsindən asılı olaraq bir neçə avrodan bir neçə min avroya qədər dəyişir. Latviyada bütün iqtisadi fəaliyyətlər üçün vahid reyestr mövcud deyil, lakin hər bir xüsusi iqtisadi fəaliyyət üçün ayrı-ayrı reyestrlər mövcuddur. Lisenziya və qeydiyyat proseduru fəaliyyət sahəsindən asılı olaraq dəyişir. Bütün şirkətlər Latviya Respublikasının Şirkət Reyestrində qeydiyyata alınırlar. Hər hansı biznes fəaliyyətinə başlamazdan əvvəl həmin ümumi reyestrdə qeydiyyatdan keçmək tələb olunur. Bununla belə, yalnız bu növ qeydiyyat qanunla nəzərdə tutulan xüsusi, əlavə qeydiyyat, sertifikat, lisenziya və ya digər icazə proseduru tələb olunan hər hansı iqtisadi fəaliyyəti davam etdirmək hüququ vermir. İqtisadi fəaliyyəti xüsusi razılıq və lisenziya olmadan davam etdirdikdə fiziki şəxslər üçün inzibati cərimə 300-700 avro aralığında, hüquqi şəxslər üçün isə 700-4300 avro aralığında tətbiq edilir.

Latviyada lisenziya tələb olunan əsas fəaliyyət növləri aşağıdakılardır:

- Maliyyə xidmətləri, bankçılıqla bağlı fəaliyyətlər də daxil olmaqla, elektron pul, pensiya fondları, xarici valyuta, sertifikat bazarının özəlləşdirilməsində broker xidməti,
- Sığorta, həyat, qəza və ya sağlamlıq sığortası da daxil olmaqla
- İdxal və ixrac
- İdarəetmə xidmətləri
- Turizm xidmətləri
- Kommunal xidmətlər
- Poçt xidmətləri
- Enerji xidmətləri (elektrik, qaz, istilik)
- Nəqliyyat, kommersiya yükü də daxil olmaqla, sərnişin daşınması, yük göndərilməsi, hava daşıması, xüsusi aviasiya işləri
- Ətraf mühitə təsir və fəaliyyətlər, çirkləndirmə fəaliyyəti, suyun istifadəsi, balıqçılıq, radiasiya mənbələrinin ionlaşdırılması

- Mədənçilik, təbii resursların kəşfiyyatı və çıxarılması, geodeziya işləri
- Əyləncə
- Ticarət ( topdan və pərakəndə satış, alkoqollu içkilər, pərakəndə pivə satışı) keytrinq xidmətləri
- Televiziya yayımı, kabel tv
- Aksizli mallarla bağlı fəaliyyətlər
- Anbar
- Vergi ödəyicilərinin təmsilçilik fəaliyyətləri
- Strateji mallar
- Əczaçılıq
- Sənaye məqsədləri üçün tütün yetişdirilməsi
- Təhlükəsizlik və aşkarlama əməliyyatları.

Gürcüstan Respublikasının Lisenziyalar və İcazələr haqqında qanununda lisenziya və icazə alınması tələb olunan fəaliyyət sahələri əks olunmuşdur. Qanuna əsasən təxminən 30 fəaliyyət sahəsi üçün lisenziya tələb olunur.

| Lisenziyalar | Rüsum | Lisenziyanın verilməsinə səlahiyyətli orqan |
|---|---|---|
| Bioloji pestisidlərin istehsalı | 280 GEL | Gürcüstan Kənd təsərrüfatı Nazirliyi |
| Silah ticarəti | 2000 GEL | Gürcüstan Müdafiə Nazirliyi |
| Xüsusi silah növü ticarəti | 100 GEL | Gürcüstan Müdafiə Nazirliyi |
| Elektron nəzarət avadanlıqlarının istehsalı, alqı-satqısı, idxalı və ya ixracı | 100 GEL- istehsalı üçün Elektron nəzarət avadanlıqlarının alqı-satqısı, idxalı və ya ixracı üçün lisenziya haqqı- | Gürcüstan Daxili İşlər Nazirliyi |

| | | |
|---|---|---|
| | kontrakt dəyərinin 1%-i | |
| Şəxsi tv yayımı | 2000 GEL | Gürcüstan Milli Kommunikasiyalar Komissiyası |
| Elektrik enerjisi istehsalı | Lisenziya haqqı yoxdur. Lisenziya sahibi Enerji və Su təchizatı Tənzimləməsi üzrə Gürcüstan Milli Komissiyası tərəfindən tətbiq edilən illik tənzimləmə haqqı ödəyir | Gürcüstanın Enerji və Su Təchizatı Tənzimləməsi üzrə Milli Komissiyası |
| Təbii qazın paylanması | Lisenziya haqqı yoxdur. Lisenziya sahibi Enerji və Su təchizatı Tənzimləməsi üzrə Gürcüstan Milli Komissiyası tərəfindən tətbiq edilən illik tənzimləmə haqqı ödəyir | Gürcüstanın Enerji və Su Təchizatı Tənzimləməsi üzrə Milli Komissiyası |

## AVTOMOBİL NƏQLİYYATI VASİTƏLƏRİ İLƏ SƏRNİŞİN VƏ YÜK DAŞIMALARINI HƏYATA KEÇİRƏN ŞƏXSLƏRDƏN VERGİNİN YIĞILMASI QAYDASI

Sərnişin və yük daşımalarını həyata keçirən avtomobil nəqliyyatı vasitələrinə taksi, avtobus və yük maşınlarını aid etmək olar.

***Rusiya Federasiyasının*** qanunlarına uyğun olaraq taksi ilə sərnişin daşınması xidmətlərinin göstərilməsi sahəsində biznes fəaliyyətinin vergiyə cəlb olunmasının dörd yolu var:

- Ümumi qaydada müəyyən olunan vergi rejimi
- Sadələşdirilmiş vergi rejimi
- Patent vergi rejimi
- Müvəqqəti gəlirlərə tətbiq olunan vahid vergi

Ümumi qaydada müəyyən olunan vergi rejimini tətbiq edən fərdi sahibkarlar fiziki şəxslərin gəlir vergisini və ƏDV-ni ödəməlidirlər. Fiziki şəxslərin gəlir vergisinin ödənilmə qaydaları Rusiya Federesiyasının Vergi Məcəlləsinin ikinci hissəsinin 23-cü fəsili ilə ƏDV-nin ödənilmə qaydaları isə Məcəllənin ikinci hissəsinin 21-ci fəsili ilə tənzimlənir.

Fiziki şəxslərin gəlir vergisi və ƏDV ödənişləri vahid vergi olan sadələşdirilmiş vergi sistemi ilə də əvəz oluna bilər. Sadələşdirilmiş vergi RF Vegi Məcəlləsinin 26.2 – ci fəsili ilə tənzimlənir. Qeyd etmək lazımdır ki, sadələşdirilmiş vergi sisteminə keçid könüllü qaydada həyata keçirilir və bundan əlavə vergi ödəyicisi bu vergini ödəmək üçün iki üsuldan birini seçə bilər:

- Ümumi hasilatın 6% dərəcəsində verginin ödənilməsi
- Gəlir ilə xərclərin fərqindən 15% dərəcəsində verginin ödənilməsi

Patent vergi rejiminin tətbiqi RF Vergi Məcəlləsinin 26.5-ci fəsili ilə tənzimlənir. Patent vergi rejiminə keçid könüllülük prinsipinə əsaslanır. Nijeqorod oblastının № 148-

3 Qanununa əsasən patentin qiyməti istifadə olunan nəqliyyat vasitələrinin sayından asılıdır.

Müvəqqəti gəlirlərə tətbiq olunan vahid vergi RF Vergi Məcəlləsinin 26.3-cü fəsili ilə tənzimlənir. Bu vergi sisteminə keçid könüllüdür. 26.3-cü fəsilin müddəalarına əsasən sərnişin daşımaları istiqamətində fəaliyyət göstərildikdə, vergi oturacaqların sayına əsasən hesablanır. Vergi Məcəlləsinin 346.32-ci maddəsinə əsasən müvəqqəti gəlirlərə tətbiq olunan vahid verginin məbləği sığorta haqları qədər azaldıla bilər.

***ABŞ**-ın Vaşinqton ştatında* taksi fəaliyyəti ilə məşğul olan şəxslərdən 3 növ vergi tutula bilər: ictimai xidmətlər vergisi, biznes və peşə vergisi, pərakəndə satış vergisi. Vaşinqton ştatının Gəlirlər İdarəsi bu şəxsləri 3 kateqoriyaya bölür: müstəqil taksi sürücüləri, taksi maşınlarını icarəyə verən şəxslər və hər iki fəaliyyətlə məşğul olan şəxslər. Hansı verginin tətbiq olunması şəxsin hansı kateqoriyaya aid olmasından asılıdır.

İctimai xidmətlər vergisi biznesin ümumi gəlirindən tutulur. Bu vergi sərnişinlərdən deyil məhz taksi sürücülərindən tutulur.

Biznes və peşə vergisi də həmçinin biznesin ümumi gəlirindən tutulur. İctimai xidmətlər vergisi kimi bu vergi də sərnişinlərdən tutulmur.

Pərakəndə satış vergisi pərakəndə fəaliyyət ilə məşğul olan hər hansı bir biznes tərəfindən müştəridən tutulan vergidir. Müştəridən bu vergini tutan biznes pərakəndə fəaliyyət ilə məşğul olduğuna görə biznes və peşə vergisini ödəməlidir.

Beləliklə, müstəqil taksi sürücüləri sərnişinlərdən heç bir vergi tutmur. Onların gəlirindən ictimai xidmətlər vergisi tutulur. Müstəqil sürücülər biznes və peşə vergisi ödəmir. Bu sürücülər taksi maşınından istifadə üçün maşının sahibinə ödədiyi məbləğ (icarə haqqı/ lizinq ödənişləri) üzrə pərakəndə satış vergisi ödəməlidirlər. Vergi sürücülərə tətbiq olunsa da taksi maşınının sahibi vergini yığıb Gəlirlər İdarəsinə köçürməlidir. Sürücünün ümumi illik gəliri 12000 ABŞ dollarından çox olarsa, o, Gəlirlər İdarəsindən qeydiyyatdan keçməlidir.

Taksi maşınlarını müstəqil taksi sürücülərinə icarəyə verən şəxslər sürücülərdən əvvəlcədən razılaşdırılmış icarə və ya lizinq ödənişləri üzrə yığılan pərakəndə satış vergisini Gəlirlər İdarəsinə köçürməlidirlər. Vergi dərəcəsi nəqliyyat vasitəsinin əsasən

harada saxlanıldığına görə müəyyən olunur. Misal üçün taksi maşını əsasən Siyetlda saxlanılırsa vergi Siyetl şəhərində tətbiq edilən dərəcə ilə tutulur. Taksi maşınlarını icarəyə verən şəxslərin illik gəliri biznes və peşə vergisinə cəlb olunur. Müstəqil taksi sürücülərindən fərqli olaraq taksi maşınlarının sahibləri ictimai xidmətlər vergisinə cəlb olunmur. İcarə/ lizinq haqqları pərakəndə satış vergisinə cəlb olunduğuna görə sahibkarlar illik gəlirlərindən asılı olmayaraq Gəlirlər İdarəsində qeydiyyatdan keçməlidirlər.

Hər iki fəaliyyətlə məşğul olan şəxslərin taksi sürücülüyündən əldə etdiyi gəliri müstəqil taksi sürücülərinə müvafiq olaraq, taksilərin icarəsindən əldə etdiyi gəliri isə taksi maşınlarını icarəyə verən şəxslərə müvafiq qaydada vergiyə cəlb olunur.

***Sinqapurda*** nəqliyyat vasitələrinin sayının artım templərinin yol infrastrukturunun inkişafını qabaqlamasının qarşısını almaq məqsədi ilə nəqliyyat vasitələri üçün kvota sistemi və nəqliyyat vasitələrinə sahiblik vergisi tətbiq edilir. Bu baxımdan, avtobuslara görə aşağıdakı vergi və rüsumlar ödənilməlidir: qeydiyyat haqqı, əlavə qeydiyyat haqqı və yol vergisi.

Sinqapurda avtobusların qeydiyyat haqqı $140 təşkil edir. Bu məbləğ avtobusların qeydiyyatı zamanı tutulur.

Əlavə qeydiyyat haqqı da avtobusların qeydiyyatı zamanı tutulur və bazar dəyərinin müəyyən faizi şəklində hesablanır. Bu rüsum omnibuslar, ekskursiya avtobusları, şəxsi avtobuslar, kirayə verilən şəxsi avtobuslar və məktəb avtobusları üçün nəzərdə tutulub və bazar dəyərinin 5% -ni təşkil edir.

Bütün Sinqapur qeydiyyatlı avtobuslar və digər nəqliyyat vasitələri etibarlı lisenziyaya (yol vergisi) malik olmalıdırlar. Bir çox nəqliyyat vasitələri üçün bu lisenziya yarım ildən və ya bir ildən bir yenilənməlidir. Bunun üçün nəqliyyat vasitəsi texniki baxışdan keçirilməlidir, yeni lisenziya dövrü üçün sığorta əldə edilməlidir. Avtobuslar üçün yol vergisi aşağıdaki qaydada hesablanır:

| **Avtobus** | **Maksimal ümumi çəki (metrik ton)** | **Yarım illik yol vergisi** | |
|---|---|---|---|
| | | **1 iyul 2013-dən** | **1 iyul 2014**-dən |

| növü | | 30 iyun 2014 kimi | | etibarən | |
|---|---|---|---|---|---|
| | | Dizel | Benzin və "Yaşıl" | Dizel | Benzin və "Yaşıl" |
| **Sərnişin tutumu 30 nəfərdən çox olmayan** | müç ≤ 3.5 | S$224 | S$179 | S$319 | S$255 |
| | 3.5 < müç ≤ 7 | S$230 | S$184 | S$328 | S$262 |
| | 7 < müç ≤ 11 | S$254 | S$203 | S$362 | S$289 |
| | 11 < müç ≤ 16 | S$343 | S$274 | S$489 | S$391 |
| | 16 < müç ≤ 20 (3 ox) | S$388 | S$310 | S$553 | S$442 |
| | 16 < müç ≤ 20 (2 ox) | S$595 | S$476 | S$850 | S$680 |
| | 20 < müç ≤ 26 (3 ox) | S$536 | S$429 | S$765 | S$612 |
| **Sərnişin tutumu 30 nəfərdən çox olan** | 3.5 < müç ≤ 7 | S$304 | S$243 | S$434 | S$347 |
| | 7 < müç ≤ 11 | S$328 | S$262 | S$468 | S$374 |
| | 11 < müç ≤ 16 | S$417 | S$334 | S$595 | S$476 |
| | 16 < müç ≤ 20 (3 ox) | S$388 | S$310 | S$553 | S$442 |
| | 16 < müç ≤ 20 (2 ox) | S$595 | S$476 | S$850 | S$680 |
| | 20 < müç ≤ 26 (3 ox) | S$536 | S$429 | S$765 | S$612 |

On ildən çox istifadə edilən nəqliyyat vasitələrinə görə əlavə ödəniş edilməlidir:

| Müddət | Əlavə ödəniş |
|---|---|
| 10 ildən artıq istifadə edilirsə | Yol vergisinin 10% |

| | |
|---|---|
| 11 ildən artıq istifadə edilirsə | Yol vergisinin 20% |
| 12 ildən artıq istifadə edilirsə | Yol vergisinin 30% |
| 13 ildən artıq istifadə edilirsə | Yol vergisinin 40% |
| 14 ildən artıq istifadə edilirsə | Yol vergisinin 50% |

Əgər lisenziya istifadə müddətinin bitdiyindən sonra yenilənərsə gecikməyə görə cərimə tətbiq edilir.

***Niderland Krallığında*** avtomobillərə, motosikletlərə və yük maşınlarına motorlu nəqliyyat vergisi tətbiq olunur. Bu vergi nəqliyyat vasitəsinin qeydiyyat yerindən asılı olmayaraq tutulur. Motorlu nəqliyyat vergisinin dərəcəsi nəqliyyat vasitəsinin növündən asılı olaraq dəyişilir. Motorlu nəqliyyat vergisi birbaşa debet və ya bank transferi yolu ilə üç aydan bir və ya ildə bir dəfə ödənilməlidir.

Yük maşınları yollara və ətraf mühitə zərər gətirdiyi üçün bu nəqliyyat vasitələrinə görə nəqliyyat vergisindən başqa Eurovignette adlanan vergi də ödənilir. Bu vergi yük maşınının qeydiyyat yerindən asılı olmayaraq aşağıdakı şərtlərə uyğun gəldikdə ödənilməlidir:

- Maşın vasitəsi ilə  yalnız yük daşınıldıqda
- Maşın magistral yollarda sürüldükdə
- Maksimal yol verilən çəki 12 tonnan çox olduqda

Eurovignette Niderland, Belçika, Lüksemburq, Danimarka və İsveç Krallıqlarında məcburidir. Bu ölkələrin birində alınan Eurovignette qalan ölkələrdə də qüvvədə olur. Eurovignette-in qiyməti aşağıdakı faktorlardan asılıdır:

- Hansı müddətə alınması (gün, həftə, ay, il və s.)
- Maşının oxlarının sayı
- Maşının ekoloji təsnifatı (avro-0, avro-1, avro-2 və yaxud ekologiyaya daha da az zərər vuran)

Eurovignette elektron formada buraxılır, əvvəlcədən internet vasitəsi ilə və yaxud satış nöqtələrindən əldə edilməlidir.

## VERGİ ORQANINDA QEYDİYYATA ALINMADAN FƏALİYYƏT GÖSTƏRƏN ŞƏXSLƏRİN AŞKAR EDİLMƏSİ MƏSƏLƏSİ HANSI QAYDADA HƏYATA KEÇİRİLİR VƏ HƏMİN ŞƏXSLƏR BARƏDƏ HANSI MƏSULİYYƏT TƏDBİRLƏRİ NƏZƏRDƏ TUTULUR?

Qeydiyyata alınmadan fəaliyyətlər "təbiətinə görə qanuni ödənişli fəaliyyətlər olsa da dövlət orqanlarına bəyan edilməyən fəaliyyətlər" kimi müəyyən olunur. Anlayışın bu forması Avropa Komissiyası tərəfindən 1998-ci ildən istifadə olunur. Qeydiyyatsız sahibkarlıq fəaliyyəti nəticəsində vergi orqanları dövlət büdcəsinə daha az vəsait cəlb edir, sosial müdafiə müəssisələri ödənişlər əldə etmir və qeydiyyata alınmayan fəaliyyətlər tam sosial müdafiə ilə müntəzəm məşğulluğun yaranmasını qismən məhdudlaşdırır. Dünyanın əksər ölkələrində o cümlədən Avstriya, Danimarka, Estoniya, Almaniya, Finlandiya, İrlandiya, Niderland, Norveç, İsveç, Birləşmiş Krallıqda qeydiyyata alınmadan göstərilən fəaliyyətlərlə əsas mübarizə aparan orqan vergi administrasiyalarıdır.

***Almaniyada*** qeydiyyata alınmayan fəaliyyətlə mübarizədə əsas tədbirlərdən biri 2004-cü ildə qəbul edilmiş "Bəyan edilməyən fəaliyyət və vergi saxtakarlığına qarşı mübarizə aktı" dır. Bu aktla fəaliyyətin bəyan edilməməsi vergi məcəlləsinə əsasən qanunvericiliyin pozulması hesab edilir. Almaniya Federal Gömrük Administrasiyasında yeni yaradılmış bölməyə qeydiyyata alınmadan göstərilən fəaliyyətlərlə mübarizədə geniş səlahiyyətlər verilmişdir. Digər hüquqlarla yanaşı, onlara əvvəlcədən xəbər vermədən istehsal yerlərinə getmək, vergi və sosial sığorta ödənişlərinə nəzarət etmək səlahiyyətləri verilmişdir. Bu baxımdan administrasiya əməkdaşları bəyan edilməyən fəaliyyətlə mübarizədə nəzarət və təhqiqat aləti hesab edilə bilərlər. Son dövrlərdə bəyan edilməyən fəaliyyətlərə görə tətbiq edilən cərimələr artırılmışdır. Bəyan edilməyən fəaliyyətlərə qarşı cərimələr qanunsuz məşğulluğa və sosial ödənişlərin aparılmamasına görə 300,000 avroyadək artırılmışdır. 2011-ci ildə vergi orqanları tərəfindən 109,166 cinayət və 59,218 inzibati proseduralar araşdırılmış, bu məsələlərdə maliyyə itkiləri 660.5 milyon avro həcmində hesablanmışdır.

Qeydiyyata alınmadan fəaliyyət anlayışına əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi halları da aiddir. 2012-ci ilin iyul ayından Danimarkada əmək müqaviləsi olmadan müxtəlif işlərin yerinə yetirilməsinə qarşı yeni qaydalar tətbiq olunmağa başladı. İyul ayının 1-dən göstərilən xidmətlərə görə ödəniş 1345 avro və daha çox olduqda həmin məbləğ nağdsız şəkildə ödənilməlidir. Bundan başqa vergi administrasiyasına xidmətdən istifadə edən şəxsin fərdi əmlakını  yoxlamaq səlahiyyəti verilmişdir. Digər cəhətdən 16 yaşdan aşağı gənclərin dostlarına, qonşularına təmirdə etdikləri köməkliklər vergidən azaddır, təqaüdçülərə il ərzində ev işlərində (təmir və s.) göstərdikləri xidmətə görə vergi ödəmədən 1345 avroya qədər gəlir əldə etməyə icazə verilir.

İsveç Krallığında bəyan edilməyən fəaliyyət vergi boşluğunun təxminən yarısını təşkil edir. Hökumət bəyan edilməyən fəaliyyətlə mübarizədə, xüsusilə də ticarət, tikinti və nağd dövriyyənin üstünlük təşkil etdiyi digər sektorlara qarşı mühüm tədbirlər həyata keçirir. İsveç vətəndaşları təmir, təmizlik işlərinə görə ödədikləri haqqın 50%-nə qədər vergi çıxılması üçün müraciət edə bilərlər. Bu növ tədbirlərdə məqsəd məşğulluğun artırılması və qanuni fəaliyyətə keçiddir.

## Nəticə

Beləliklə, beynəlxalq aləmdə kassa aparatlarının istifadəsi üzrə müasir problemlər satışların gizlədilməsi məqsədi ilə kassa qeydiyyatının aparılmaması deyil, aparılmış qeydlərin xüsusi proqramlardan istifadə etməklə silinməsi məsələsidir. Qabaqcıl ölkələrdə belə “zappers” və “phantom-ware” kimi proqram təminatları mövcuddur ki, vergi orqanları onların istifadə olunub-olunmadığını yoxlamaqdadırlar. Bunun üçün məlumatları təhlil etməyə xidmət edən xüsusi proqram təminatları mövcuddur və yoxlayıcılarda xüsusi bilik və bacarıqların olmasını şərtləndirir.

Aksiz markaları ilə markalanmalı olan malların siyahısı demək olar ki, bir çox ölkələrdə eynidir. Bunlar alkoqollu içkilər, tütün, neft və neft məhsullarından ibarətdir. İnzibatçılıq qaydaları ölkələrə görə dəyişə bilir. Məsələn, Avstraliyada aksizli malların qanunsuz satışına görə həbs cəzası və cərimələr tətbiq olunursa, Böyük Britaniyada müsadirə tədbirləri tətbiq olunur.

Xüsusi razılıq tələb olunan fəaliyyət növləri üzrə araşdırma Estoniya, Latviya və Gürcüstan Respublikası üzrə araşdırılmışdır. Hər bir ölkədə lisenziyalı fəaliyyət sahələri müvafiq qanunla tənzimlənir. Məsələn, Estoniyada xüsusi razılıq tələb olunan fəaliyyət sahələrinə Enerji (elektrik istehsalı, satışı, qaz idxalı, satışı, istilik istehsalı, satışı), Dəniz nəqliyyatı xidmətləri və gəmiçilik agentliyi, Dəmir yolları (dəmiryolu infrastrukturunun idarəedilməsi, sərnişin və mal nəqliyyatı xidmətləri), Taksi, ictimai nəqliyyat, Əczaçılıq fəaliyyəti, İdman mərc oyunları, Təhlükəsizlik xidmətləri, Sığorta fəaliyyəti, Maliyyə xidmətləri, kredit təşkilatları ilə bağlı fəaliyyətlər, fondun idarə edilməsi, investisiya fəaliyyətləri, qiymətli kağızlar bazarı, Poçt xidmətləri, Silah, sursat və partlayıcılarla bağlı fəaliyyətlər, Gömrük brokerləri, Geoloji tədqiqat aiddir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarının vergiyə cəlb olunma qaydaları üzrə müxtəlif  təcrübələr mövcuddur. Məsələn, Rusiyada aşağıdakılardan biri üzrə vergi toplanır:

- Ümumi qaydada müəyyən olunan vergi rejimi
- Sadələşdirilmiş vergi rejimi
- Patent vergi rejimi

- Müvəqqəti gəlirlərə tətbiq olunan vahid vergi

Qeydiyyata alınmadan fəaliyyət göstərən şəxslərin aşkar edilməsi məsələsi hər bir vergi administrasiyası üçün aktualdır və müvafiq qanunvericiliyin pozulması hesab edilir. Bu qanun pozuntularına görə külli miqdarda cərimələr nəzərdə tutulmuşdur. Məsələn Almaniyada qanunsuz məşğulluğa və sosial ödənişlərin aparılmamasına görə 300,000 avroyadək cərimələr nəzərdə tutulmuşdur.